# Gənc kitabxanaçı beynəlxalq təlimdə fərqlənib

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının şöbə müdiri Nübar Cəlilova Moskvada keçirilən "Kitabxanaların birlik təhsil əməkdaşlığı" mövzusunda beynəlxalq təlimdə Azərbaycanı təmsil edib. Onun Rusiya Federasiyasının paytaxtındakı çıxışı maraqla qarşılanıb və sertifikata layiq görülüb.**



Bizimlə söhbətində Nübar Cəlilova qeyd etdi ki, 25–35 yaşarası gənc kitabxanaçıların cəlb olunduğu beynəlxalq kursun ilk mərhələsi 31 may–14 iyun tarixlərində distant tədris formasında keçirilib. Təlimdə Azərbaycandan təkcə o, 100 ballıq nəticə ilə fərqlənərək, əyani formada keçirilən 2-ci tura vəsiqə qazanıb.

Bugünlərdə beynəlxalq humanitar əməkdaşlığın "Yeni nəsil" proqramı çərçivəsində təşkil edilən 2-ci mərhələdə Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Serbiya, Tacikistan və Özbəkistanın kitabxanalarından 53 gənc mütəxəssis iştirak edib. Kurs çərçivəsində sahənin prioritet fəaliyyət istiqamətləri, nümunəvi bələdiyyə kitabxanalarının yaradılması, nəşrlərin rəqəmsallaşdırılması və Milli Elektron Kitabxana portalında yerləşdirilməsi üzrə Rusiyanın milli layihələri, müasir dövrdə kitabxanalar qarşısında duran vəzifələr və digər mövzular müzakirə edilib.

Təlimin həlledici mərhələsində çıxış edən Nübar xanım 95 yaşı tamam olan Respublika Gənclər Kitabxanasının daxili strukturu, fond tərkibi, fəaliyyəti, kitabxanada tətbiq edilən milli sistem – "Alisa" proqramı haqqında ətraflı məlumat verib. O, çalışdığı kitabxanada rəsmi sayt üzərindən təqdim edilən elektron xidmətlər, virtual ünsiyyət vasitələri, kitabların elektron formata keçirilməsi, əməkdaşların təlimlərə cəlb olunması prosesindən danışıb. Nübar Cəlilovaya və layihədə fərqlənən digər gənc mütəxəssislərə sertifikatlar təqdim olunub.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin sənətşünaslıq fakültəsinin məzunu olan Nübar xanımın kitablara həvəsi onu 5 il əvvəl C.Cabbarlı adına Respublika Gənclər kitabxanasına gətirib. Hələ tələbə ikən oxucusu olduğu bu kitabxanada çalışdığı müddətdə o, nümunəvi işi ilə daim fərqlənib. Soydaşımız beynəlxalq tədbirlərdə də fəal iştirak edir.

Nübar Cəlilovanın bu barədə dedikləri:

– İlk dəfə 2020-ci ildə Rusiya Federasiyasının Krasnodar vilayəti Gənclər Kitabxanasının İkinci dünya müharibəsində faşizm üzərində qələbənin 75 illiyi münasibətilə təşkil etdiyi "Qələbənin şifrəsi birlikdir" adlı beynəlxalq internet forumunda iştirak etmişəm. Bu yarışmaya hər kitabxanaçı bir oxucusu ilə qatılmalı idi. Mən və oxucum Jalə Rəhimova onlayn formada keçirilən həmin sınaqda 1-ci yeri tutaraq beynəlxalq sertifikata layiq görüldük. Budəfəki uğurum daha önəmlidir. Çünki əməkdaşı olduğum C.Cabbarlı adına Respublika Gənclər kitabxanasının 95 illiyi ərəfəsində fərqlənə bilmişəm.

*Əli NƏCƏFXANLI,*
*"Xalq qəzeti"*

Xalq qəzeti .- 2023.- 25 avqust.- S.10.